**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№361/6** **14 dekabr 2023-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2019-cu il 31 oktyabr tarixli 313/3 nömrəli qərarı ilə I redaksiyada, 2021-ci il 12 iyul tarixli 332/7 nömrəli qərarı ilə II redaksiyada təsdiq edilmiş "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesbatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"ə dair arayış barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2019-cu il 31 oktyabr tarixli 313/3 nömrəli qərarı ilə I redaksiyada, 2021-ci il 12 iyul tarixli 332/7 nömrəli qərarı ilə II redaksiyada təsdiq edilmiş "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesbatlarının auditi aparan kənar auditorlara qarşı xüsusi tələblər"ə dair Palatanın Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi (V.Cavadov) tərəfindən təqdim edilmiş arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2019-cu il 31 oktyabr tarixli 313/3 nömrəli qərarı ilə I redaksiyada, 2021-ci il 12 iyul tarixli 332/7 nömrəli qərarı ilə II redaksiyada təsdiq edilmiş "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesbatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"ə dair arayış nəzərə alınsın (əlavə olunur).
2. Auditor xidmətinin sifarişçilərinə tövsiyə edilsin ki, "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"ə cavab verən auditor təşkilatlarının və sərbəst auditorların xidmətlərindən istifadə etsinlər (siyahı əlavə olunur).
3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"ə cavab verən auditor təşkilatlarının və sərbəst auditorların siyahısının operativ olaraq yenilənməsi və Auditorlar Palatasının internet səhifəsində dərc etdirilməsi üçün Palatanın rəhbərliyinə təqdim olunması təmin edilsin.
4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**